# EKOMUZEYLƏR - YAŞIL DÜNYA KONSEPSİYASININ TƏZAHÜRÜ KİMİ

**Yeganə Eyvazova**

*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı*
*eyvazova.yegane@mail.ru*

"Yaşıl dünya naminə həmrəylik ili" öz ideya qaynağını son illərin aktual və qlobal məsələsi sayılan yaşıl enerjidən götürür. Hazırda bəşəriyyəti düşündürən bu problemin həlli yolları cəmiyyətin bütün strukturlarını əhatəsinə almaqdadır. Ətraf mühit, onun insani və qeyri-insani resurlarının yaşıl dünya fonunda qorunması yaşıl enerji çərçivəsinə sığan məsələlərdəndir. Bu mənada hələ ötən əsrin 70-ci illərindən təşəkkül tapmağa başlamış ekomuzeylər mədəniyyətin təbii faktorlarla inteqrasiyasının aktual təzahürlərindən sayılır.

Ekomuzeylər - xarici muzeyşünaslıqda xalq sənətkarlığı ənənələrinin yaradıcı şəkildə canlandırılması ilə kiçik emalatxanalar əsasında fəaliyyət göstərən muzey tipli müəssisələrdir. Ekomuzeylər ənənəvi texnologiyalar bazasında təşkil olunur, sənət növünün özü isə, qeyri-maddi irs obyekti kimi qorunur. Ekomuzeylər mövcud regionun ekoloji problemləri və xüsusiyyətləri nəzərə alınmaqla etnomədəni mühitin səmərəli şəkildə qorunması məqsədini həyata keçirən açıq səma altında yerləşən muzeylərdir. Bu yeni tipli muzeylərin təşəkkülünü zəruri edən başlıca amil əraziyə etnoekoloji yanaşmadır: ərazinin təbii şəraiti ilə texniki, iqtisadi və etnomədəni inkişafı arasındakı münasibətlərin inteqrasiyasına nail olmaqdır. Ekomuzeylər yerli əhlinin milli özünəməxsusluğunun saxlanılması üçün əlverişli şərait yaradır, həyati dəyər və mədəni ənənələrin yenidən istehsalı üçün lazımi mexanizmləri bərpa edir. Ənənələrin yenidən istehsalı əhalinin tələbatı olub, növbəti nəslə ötürülməsi mexanizmidir. Bu mənada "ekomuzey" termini qorunma üsulu mənasında başa düşülür.

"Ekomuzey" istilahını ilk dəfə kanadalı muzeoloq S.Simar təklif etmiş və bununla bağlı konsepsiyanı yaratmışdır. Bu anlayış ilk dəfə Fransada ötən əsrin 70-ci illərində tətbiq olunmağa başlamışdır. "Ekomuzey" termini biologiyanın insanla təbii aləmin, eləcə də ətraf mühit daxil olmaqla qarşılıqlı münasibətlərini öyrənən "ekologiya", eyni zamanda mədəni hadisələrin təhlili üçün tətbiq edilən "mədəniyyətin ekologiyası" istilahı ilə əlaqələndirilir. Ekomuzeylər ekomuzeologiya konsepsiyasından irəli gələn ideyadır. Ekomuzey konsepsiyası keçmiş cəmiyyətlərin qoyub etdiyi mədəi irsin regionun təbii landşaftı ilə inteqrasiyası prinsipinə əsaslanır. Bu ideyanın formalaşmasında Avropa muzeoloqları Yuq de Varin, Pyer Meyran, Rivyer Jorj Anrinin xidmətlərini xüsusi vurğulamaq lazımdır. Ekomuzeylərlə bağlı bu müəlliflərin hər birinin özünəməxsus orijinal fikir və mülahizələri mövcuddur. Məsələn, Yuq de Varin ekomueylərin əsas prinsiplərini qeyd etmiş, onun ardıcılı Pyer Meyran ekomuzeylərin aşğıdakı üç başlıca müddəasını: konservasiya, maddi dəlillərlə əməkdaşlıq və nümayiş kimi müəyyənləşdirmişdir. 1984-cü ildə Kvebekdə "Ekomuzeylər və yeni muzeologiya" mövzusunda keçirilmiş beynəlxalq seminarda Pyer Meydanın rəhbərliyi altında "Yeni muzeologiya hərəkatı" adlı təşəbüs qrupu yaradılır. Həmin seminarda qəbul edilmiş "Kvebek deklarasiyası"nda Jorj Anri Rivyerin "ekomuzeylərin təkamül tərifi" ideyası öz əksini tapdı. Fransız muzeyşünası və müasir etnoqrafik muzeyşünaslığın novatoru, ekomuzeylər haqqında konsepsiyanın yaradıcısı J.A.Rivyer ekomuzeyləri yerli əhaliyə ünvanlanmış yeni tipli muzeylər kimi təqdim etmişdir. Ekomuzeylərə sosial institut kimi yanaşan J.A.Rivyer bu muzeylərə xas dörd mühüm xüsusiyyəti qeyd edir: birincisi, bu, insanın özünü və onu əhatə edən təbii və mədəniyyət aləmini görə bildiyi güzgüdür; ikincisi, mövcud regionun dünəni və bu gününü öyrənən laboratoriyadır (tədqiqat mərkəzi); üçüncüsü, yerli təbiət və mədəni irsin qorunması, dəyərləndirməsinə kömək edən qoruqdur; nəhayət, dördüncüsü, yerli sakinləri irsin öyrənilməsi və qorunmasına cəlb edən məktəbdir.

Vətəni Avropa sayılan ekomuzeylərin Azərbaycandakı nümunələri diqqəti cəlb edir. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, "Qobustan" Milli Tarix-Bədii Qoruğu, "Xınalıq və Köç yolu" Dövlət Tarix-Mədəniyyət Etnoqrafiya Qoruğu, "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğu, Şəki "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğu, həm də ekomuzey funksiyalarını yerinə yetirən muzeylərdir.